# İcbari tibbi sığorta çərçivəsində əhaliyə 3 mindən çox xidmət göstəriləcək

**Amerika filosofu Ralf Uoldo Emerson deyib ki, sağlamlıqdan böyük zənginlik yoxdur. Bəli, sağlam olmaq hər kəsin arzusudur. Amma bəzən xəstəliklərdən də qaçmaq mümkün olmur. Ömründə heç xəstələnməyən insan da yoxdur. Olsa da barmaqla sayılacaq qədər azdır. Kimi az, kimi çox, hansısa yaşında hansısa xəstəliklə mübarizə aparır. Xəstəliyin gətirdiyi sarsıntı bir dərddirsə, beladan qurtulmaq ayrı bir dərddir. Vaxtında aşkarlanan xəstəliyə zamanında edilən müalicə köməyə yetsə də, hər kəsin maddi vəziyyəti şəfasını tez tapmağa imkan vermir. Bütün bunlar isə icbari tibbi sığortanın vacibliyini labüd edir.**




Ölkəmizin səhiyyə sistemində son vaxtlar nəzərə çarpan müsbət dinamika əhali tərəfindən razılıqla qarşılanır. İcbari tibbi sığortanın tətbiqindən sonra reallaşan dəyişikliklər keyfiyyətli tibbi xidməti bütün vətəndaşlar üçün əlçatan edib. Artıq əhalinin keyfiyyətli tibbi xidmətlərlə təmin olunması üçün böyük işlərin görüldüyünü söyləmək olar. Xüsusilə, icbari tibbi sığortanın tətbiqindən sonra səhiyyə sistemində kök atmış neqativ hallara zərbə vurulub. Əvvəllər əhalinin müəyyən qismi bütün lazımi tibbi xidmətlərdən istifadə etmək imkanına malik deyildi. Amma sığorta sisteminin tətbiqindən sonra vətəndaşlar üçün daha geniş səhiyyə xidmətlərindən istifadə etmək imkanı yaranıb.

Ümumiyyətlə, icbari tibbi sığortanın məqsədi də məhz səhiyyənin maliyyələşdirilməsini təkmilləşdirmək, habelə əhaliyə etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərin göstərilməsinə zəmanət verəcək universal və dayanıqlı tibbi sığortanı reallaşdırmaqdır. Yəni vətəndaşlar cibindən pul xərcləmədən tibbi sığorta vasitəsilə istənilən klinikada müayinə və müalicə olunurlar. Bu, həm də tibb müəssisələri arasında əhaliyə xidmət rəqabətini artıracaq. Hər müəssisə çalışacaq ki, daha yaxşı xidmət göstərsin, ona tibbi sığorta vasitəsilə daha çox vətəndaş müraciət etsin. Çünki, belə olduqda, tibb işçilərinin əmək haqları da artacaq, eləcə də, hər bir tibb müəssisəsi öz maddi–texniki bazasını gücləndirəcək. Nəzərə alsaq ki, icbari tibbi sığorta Azərbaycanda hələ yenidir, bu baxımdan bir sıra çətinliklərin olması təbiidir. Amma olan problemlərin də aradan qaldırılacağı labüddür.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev 2021-ci ilin yekunları və bu ilin ilk 3 ayında görülən işlərlə bağlı bugünlərdə keçirilən mətbuat konfransında öncə, ötən il əldə olunan nəticələr haqqında məlumat verib. Sədr bildirib ki, 1 aprel 2021-ci il tarixindən etibarən icbari tibbi sığortanın ölkəmizin hər yerində tətbiqi nəticəsində səhiyyə sahəsindəki ən əhəmiyyətli islahatlardan biri həyata keçirilib. O deyib: "2021-ci ildə icbari tibbi sığorta çərçivəsində dövlət tibb müəssisələrinin əhaliyə göstərdiyi xidmət sayı 22 milyondan çox olub. Bu dövrdə agentliyin müqavilə bağladığı özəl tibb müəssisələrində göstərilən cərrahi xidmət sayı isə 27 min 305-ə yüksəlib. Beləliklə, icbari tibbi sığortanın tətbiq olunduğu ərazilərdə əhalinin 42 faizi tibbi xidmətlərdən yararlanıb. Xidmətlər Zərfi çərçivəsində göstərilən tibbi xidmətlər vətəndaşların ən çox müraciət edilən, habelə əlillik və ölüm riski olan xəstəliklər üzrə müayinə və müalicə olunmalarını təmin edib".

Zaur Əliyev tibbi statistik göstəricilərlə yanaşı səhiyyə işçilərinin əməkhaqqı artımından və tibb müəssisələrinin maddi – texniki bazasının gücləndirilməsindən də danışıb: "2021-ci ildə səhiyyə işçilərinə 717 milyon manatdan çox vəsait ödənilib və bu nəticə 2020-ci illə müqayisədə 18 faiz artım əldə edildiyini göstərir. Təchizata gəldikdə isə qeyd olunmalıdır ki, ötən il ərzində tibb müəssisələri 5 min 248 ədəd yeni cihaz və avadanlıqla təmin olunub, 274 tibb müəssisəsində İKT infrastrukturunun qurulması üzrə işlər başa çatdırılıb".

Agentliyin eyni zamanda tibb müəssisələrində struktur dəyişiklikləri apardığını bildirən Z.Əliyev vurğulayıb ki, məqsəd idarəetməni təkmilləşdirmək və vətəndaşın daha çox tibbi xidmətə əlçatanlığını artırmaqdır: "İslahatlar çərçivəsində keçən il ölkə üzrə fəaliyyət göstərən Ailə Sağlamlıq mərkəzlərinin sayı 278-ə yüksəlib, Bakı şəhərinin rayonları üzrə 11 tibb mərkəzi, Sumqayıt şəhərində isə Sumqayıt Tibb Mərkəzi yaradılıb. Ən mühüm yeniliklərdən biri isə 2021-ci ilin oktyabr ayından etibarən Şuşa şəhərində modul tipli xəstəxananın fəaliyyətə başlamasıdır. Müəssisə ötən il ərzində 1 256 pasiyent qəbul edib".

2022-ci ildə görülən işlərdən bəhs edən İdarə Heyətinin sədri bildirib ki, agentlik tərəfindən Xidmətlər Zərfinə dəyişikliyin edilməsi barədə layihə hazırlanıb və aidiyyəti quruma təqdim olunub. Layihədə 700 tibbi xidmətin Xidmətlər Zərfinə daxil edilməsi, ümumilikdə 3 mindən çox tibbi xidmətin icbari tibbi sığorta çərçivəsində göstərilməsi nəzərdə tutulur. Yeni tibbi xidmətlər limitli qaydada orqan transplantasiyası, ürək–damar cərrahiyyəsi, oftalmoloji və travmatoloji əməliyyatları əhatə edir. Bundan başqa, hazırda limit sayı 300 olan koxlear implantasiya və endoprotezləşdirmə əməliyyatlarının sayının müvafiq olaraq 400-ə və 1200-ə qədər artırılması təklifi irəli sürülüb.

Z.Əliyev həmçinin səhiyyə işçilərinin əməyinin ödənilməsi qaydasına ediləcək dəyişiklik və tibb işçilərinə güzəştli ipoteka kreditinin verilməsi ilə bağlı Agentliyin təklifi haqqında mətbuat nümayəndələrinə məlumat verib.

Bildirilib ki, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində çalışan səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydası"na dəyişikliklər edilməklə 31 ixtisas üzrə çalışan həkimlərin aylıq əməkhaqlarının bütün məcburi tutulmalardan sonra dəqiq məbləğinin 1000 manata çatdırılması nəzərdə tutulur.

Zaur Əliyev əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi və tibb işçilərinin sosial rifahının yaxşılaşdırılması istiqamətində davamlı tədbirlərin həyata keçirildiyini bildirib. O deyib: "Bu, səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydasına cari il üzrə edilən sayca 5-ci dəyişiklikdir. Çalışırıq ki, tibbi xidməti alan tərəf məmnun olduğu qədər xidməti verən tibb işçiləri də icbari tibbi sığortanın tətbiqindən razı qalsın. Məqsədimiz tibb işçilərinin sosial rifahını yaxşılaşdırmaq və tibbi xidmətlərin vətəndaşlara əlçatanlığını təmin etməkdir. Hazırkı artım 31 ixtisas üzrə çalışan 8 minə yaxın həkimə şamil olunacaq. 17 ixtisas üzrə çalışan həkimlərin (allerqoloq, dermatoveneroloq, endokrinoloq, fizioterapevt, infeksionist, kardioloq, narkoloq, nevroloq, pediatr, psixiatr, oftalmoloq, pulmonoloq, revmotoloq, terapevt, toksikoloq, travmatoloq–ortoped, müalicəvi bədən tərbiyəsi üzrə həkim) maaşında artım 2 dəfəyədək təşkil edəcək. 14 ixtisas üzrə çalışan həkimlərin (nefroloq, ftiziatr, neonatoloq, genetik, laborant, metodist, mikrobioloq, epidemioloq, hematoloq, diyetoloq, psixoloq, loqoped, statistik, mülicəvi bədən tərbiyəsi üzrə mütəxəssis) maaşında isə artım 20 – 90 faiz arası dəyişəcək. Maliyyə imkanları artdıqca çalışacağıq ki, səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydasına yenidən baxaraq, onların sosial müdafiəsini daha da gücləndirək.".

Nəzərdə tutulan maaş artımı üzrə illik əlavə maliyyə xərci təqribən 100 milyon manat təşkil edir. Qaydaya edilən dəyişikliklərin 2022-ci ilin 1 iyun tarixinədək qüvvəyə minməsi nəzərdə tutulur. Qeyd edək ki, bundan əvvəl səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydasına edilən digər bir dəyişiklik səhiyyə işçilərinə bilavasitə ixtisası üzrə çalışdıqları hallarda elmi dərəcələrə görə ödənilən əlavələrin məbləğlərinin artırılması ilə bağlı olmuşdur. Belə ki, elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcələrinə görə ödənilən əlavələr 20 manat artırılaraq, müvafiq olaraq 100 və 60 manata çatdırılmışdır. Bundan başqa reanimasiya, intensiv terapiya və anesteziologiya, toksikologiya şöbələrində, intensiv terapiya bloklarında – bölmələrində çalışan həkimlərə həm gecə, həm də gündüz növbəsi zamanı tibbi xidmət göstərilən hər pasiyent üçün 5 manat ödəniləcək. Bundan əvvəl hər pasiyent üçün sözügedən şöbələrdə çalışan həkimlərə yalnız gecə növbəsi zamanı tibbi xidmət göstərilən zaman əlavə ödənilirdi.

Onu da qeyd etmək yerinə düşər ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi güzəştli ipoteka krediti və sosial mənzil almaq hüququ verilən şəxslərin siyahısına dövlət tibb müəssisələrində çalışan tibb işçilərinin əlavə edilməsi ilə bağlı təklif hazırlayıb. "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"na təklif olunan dəyişikliklər tibb işçilərinin mənzilə olan tələbatının ödənilməsi və onların mənzil–məişət şəraitini yaxşılaşdırmaq məqsədi daşıyır. Zaur Əliyevin sözlərinə görə, təklifdə güzəştli ipoteka kreditindən istifadə etmək hüququ əldə etmək üçün gənc ailənin üzvü olaraq ən az 3 il dövlət tibb müəssisələrində tibbi fəaliyyətlə məşğul olmaq tələbi var. Eyni zamanda, gənc ailənin üzvü olmayan tibb işçilərinin güzəştli ipoteka kreditindən yararlanması üçün ən az 15 il dövlət tibb müəssislərində tibbi fəaliyyətlə məşğul olmaq tələbi irəli sürülüb.

Təklif artıq aidiyyəti dövlət orqanlarına və qurumlarına təqdim olunub. Sənəd qəbul olunduğu təqdirdə dövlət orqanlarının (qurumlarının) nəzdindəki tibb müəssisələrində çalışan həkimlər, orta və kiçik tibb işçiləri (tibb müəssisəsinin rəhbəri istisna olmaqla) güzəştli ipoteka kreditindən yararlanmaq imkanı əldə edəcəklər.

İcbari tibbi sığorta (İTS) dünya səhiyyəsində geniş yayılmış həmrəyliyə əsaslanan sosial layihə və əhalinin tibbi yardım almaq hüququnu təmin edən sistemdir. Bu sistem sığorta hadisəsi zamanı sığortaolunanların xidmətlər zərfi çərçivəsində tibbi yardım almasını təmin edir. Xidmətlər zərfi çərçivəsində təminatı nəzərdə tutulmuş tibbi xidmətlərin göstərildiyi hər hansı hadisə və hal sığorta hadisəsi hesab edilir. Ümumiyyətlə, icbari tibbi sığortaya keçid bütün ölkələrdə çətin və ağır islahatlardan biri kimi səciyyələndirilir. Bununla belə, müəyyən çətinliklərə baxmayaraq, proses ölkəmizdə uğurla həyata keçirilir.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***